# MÜSTƏQİLLİYİMİZİN QƏHRƏMANLIQ ZİRVƏSİ

## 50 yaşı olacaqdı

*Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində şəhid Mahir Hüseynovun doğum gününə, həm də 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.*

*Mərasimdə qəsəbə şəhidləri Təbriz Yaqubovun, İkram Umarovun, Mahir Hüseynovun, Bəhruz Quliyevin və Sahil Şirinovun yaxınları, əzizləri, sinif yoldaşları, müəllimləri, qəsəbə ictimaiyyətinin nümayəndələri və rayon təhsil şöbəsinin işçisi Şükufə Cavadova iştirak etmişdir.*



Tədbir iştirakçılarının bir qrupu aprel şəhidi Sahil Şirinovun məzarını ziyarət edərək üzərinə gül dəstələri qoymuşlar.

Sonra Mahir Hüseynov barədə məktəbdə tərtib olunan fotoguşəyə baxmışlar. Mərasim məktəblilərin oxuduqları Azərbaycan Respublikasının Dövlət Himni ilə başlamışdır.

Məktəbin uşaq birliyinin rəhbəri Gülnar Quliyeva tədbiri açıq elan etmiş, zala Azərbaycanın üçrəngli Dövlət bayrağı gətirilmişdir. Mərasim iştirakçıları şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Uşaq birliyinin rəhbəri qanlı 20 Yanvar qətliamının törədilməsindən, erməni separatçıları tərəfindən ölkəmizin torpaqlarının işğal olunmasından, soydaşlarımızın öz yurd-yuvalarından didərgin düşməsindən, həmin vaxtlar ölkədə baş alıb-gedən xaosdan, anarxiyadan ətraflı danışmışdır.

Şəhid Mahir Hüseynovun məktəb illəri haqqında onun müəllimi, bu sətirlərin müəllifi ətraflı söhbət açmışdır. Qeyd olunmuşdur ki, Mahir yaşasaydı onun bu gün 50 yaşı olacaqdı.

Şagirdlərdən Nuranə Bayramova, Aygün Şəfiyeva, Aysu Məzahirli, Mənsurə Quliyeva, Gülər Həmidova, Rəşad Tanrıverdiyev, Elnur Quliyev, Nəsir Nəsibov, Aynur Ərəbzadə, Sevinc, Sevda Alməmmədovalar, Nərmin Rəşidova, Səidə Babayeva, Sevinc Quliyeva, Şəbnəm Aşurova, Aysu Kərimova və digərləri şəhidlərə həsr olunmuş şeirlər oxuyublar.

Toplantıda şəhid Mahir Hüseynovun bacısı qızı Aydan Məmmədovanın ona həsr etdiyi şeir dinlənilmişdir.

Məktəbin direktoru Məlahət Dadaşova, müəllimlərdən Əmir Cəfərov, Hürü İbrahimova, Azadə Hacıyeva, Ramil Məmmədov qəsəbə şəhidləri haqqında öz kövrək xatirələrini söyləmişlər. Mahir Hüseynovun sinif yoldaşlarından Şahid Rəşidov, Əfqan Nəsibov, Mehman Umarov onun haqqında ən maraqlı təəssüratlarını danışmışlar.

Mərasimdə Mahirin qardaşı Zahir Hüseynov, bacısı Lütviyyə Məmmədova, şəhid Təbriz Yaqubovun qardaşı Rustəm Yaqubov, İkram Umarovun qardaşı Mehman Umarov, Sahil Şirinovun anası Şəhla Şirinova əzizləri haqqında ürək sözlərini söyləmişlər.

Tədbirin sonunda qəsəbə dini icmasının nümayəndəsi Ayaz Osmanov tərəfindən şəhidlərimizin ruhuna dualar oxunmuş, şəhid anası Şəhla Şirinova ehsan paylamışdır.

## Bölük komandiri Şəfahət

***Şəhidlər heç zaman ölmürlər. Onlar əbədi olaraq ürəklərdə yaşayırlar.***

***Torpaqlarımızın bütövlüyü uğrunda mənfur ermənilərlə aparılan döyüşlərdə neçə-neçə igid oğullarımız öz canlarını qurban vermiş və əbədiyyətə qovuşmuşlar.***



Onlardan biri də həmyerlimiz Şəfahət Zaməddin oğlu Zeynalovdur. Şəfahət 1972-ci ilin dekabr ayının 5-də Uludaş kəndində bənna ailəsində dünyaya göz açıb. 1979-cu ildə Uludaş kənd tam orta məktəbin birinci sinfinə gedən Şəfahət orta təhsilə də doğma kəndlərində yiyələnib. Məktəbdə sadəliyi, mehribanlığı, yaxşı oxuması ilə fərqlənib. Vətənpərvər eloğlumuz 1989-cu ildə Rusiya Federasiyasının Kalininqrad şəhərində Ali Hərbi Ümumqoşun Komandirləri məktəbinə daxil olub. Sovet İttifaqı dağıldıqdan sonra o təhsilini Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) davam etdirib.

Şəfahət Zeynalov Qarabağ uğrunda gedən döyüşlərdən hər an narahat olur, cəbhə bölgələrinə yollanmaq və erməni qəsbkarlarından qisas almaq arzusu ilə yaşayırdı. Elə buna görə də o, vaxtından əvvəl imtahan verərək leytenant rütbəsinə yiyələnir və öz arzusu ilə 18 dekabr 1993-cü ildə «N» saylı hərbi hissəyə bölük komandiri göndərilir. Füzuli və Cəbrayıl rayonlarında gedən ağır döyüşlərdə bölük komandiri kimi iştirak edir. döyüşlərdə igidliyi, mərdliyi, qorxmazlığı və zabit səriştəsi ilə seçilir.

Şəfahət subay idi. Atası Zaməddin kişi bənna kimi uzun illər rayonumuzun tikinti təşkilatlarında tikib yaratmaqla məşğul olub. 1993-cü ildə dünyasını dəyişib. Anası Qüdrət xanım «Azərbaycan» kolxozunda tütün əkib-becərib. Keçən il vəfat etmiş Qüdrət anaya balasının ölümü bir dərd olsa da, övladının Vətən yolunda şəhid olması ilə fəxr edir və bundan özünə təsəlli tapırdı.

Şəfahət 11 fevrval 1994-cü il tarixdə Cəbrayıl rayonunun Mehdili kəndi uğrunda gedən döyuşlərdə qəhrəmancasına şəhid olub. Ruhu şad olsun!

## Şəhidlərin abidəsi önündə

***Qafur Şərifov adına Uludaş kənd tam orta məktəbin müəllim və şagirdləri 20 Yanvar faciəsinin 28-ci ildönümünü kənddə ucaldılmış şəhidlərin abidəsi önündə keçirmişlər.***

Tədbiri məktəbin direktoru Sadəddin Eldarov açmışdır. Toplantıya Azərbaycanın bayrağı gətirildikdən sonra söz şagirdlərə verilmişdir. VIII sinif şagirdlərindən Lalə Ağasıyeva, Namiq Məmmədov, Rəşad Məhərrəmov, V sinif şagirdlərindən Gülsənəm Şərifova, İzzət Rəsulov, Kifayət Qaçayeva, Turan Ağəmmədov, Anar Məmmədxanov, IV sinif şagirdi Filiz Məhərrəmova 20 Yanvara, şəhidlərə həsr edilmiş şeirlər söyləmişlər.

Toplantıda məktəbin tarix müəllimi Rəhman Abdurahmanov 20 Yanvar hadisələrinin törədilməsindən, Qarabağ konfliktindən danışmışdır.

Yekunda kənd məscidinin imamı Zaur Qaçayev şəhidlərin ruhuna dualar oxumuşdur.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin uzvü, «Qızıl Qələm» media mükafatı laureatı.**

## Azadlığa gedən yol

***Qəbələ Tarix-Diyarşünaslıq Muzeyində “Şəhidlər ölməz” mövzusunda “dəyirmi masa” təşkil olunub.***

Tədbirdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra 20 Yanvar hadisələrinin mahiyyəti, başvermə səbəbləri və nəticələri haqqında geniş söhbət aparılıb. Həmin dəhşətli gecədə neçə-neçə qəhrəman övladlarımızın tanklar altında əzildiyi, onların haqq səslərini batırmaq üçün hər cür vasitələrə əl atıldığı, işgəncələr, zülmlər verildiyi qeyd olunub.

Lakin mətin, qəhrəman Vətən övladlarının müstəqillik uğrunda, xalqın azadlığı naminə canlarını fəda etdikləri, ölməzlikləri ilə Azərbaycan tarixində hər zaman bütün ölkə gəncliyinə örnək, nümunə ola bilən yeni şanlı bir səhifə yazdıqları və azadlığa gedən yolun 20 Yanvar gecəsindən başlandığı bildirilib.

**Tarix-diyarşünaslıq muzeyi.**

## 20 Yanvar şəhidləri unudulmur

***20 Yanvar faciəsindən 28 il ötür. Bu qanlı tarix xalqımızın yaddaşına əbədilik həkk olunub.***

***Hər il olduğu kimi bu il də 20 Yanvar hadisələrinin ildönümü ilə əlaqədar ölkəmizdə silsilə tədbirlər keçirilib.***

Zarağan kənd 1 nömrəli tam orta məktəbində də 20 Yanvar Ümumxalq Hüzn Günü ilə əlaqədar tədbir keçirilib. Müəllim və şagird kollektivinin iştirak etdiyi tədbirdə əsas məqsəd 20 Yanvar faciəsi zamanı qəhrəmancasına şəhid olan oğul və qızlarımızın əziz xatirəsini yad etmək, onların vətənin azadlığı uğrunda canlarından belə keçməyə hazır olan əsil vətənpərvər övladlar olduqlarını gənc nəslə çatdırmaqdır.

Əvvəlcə 20 Yanvarda və Qarabağ uğrunda gedən döyüşlərdə həlak olan oğul və qızlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Məktəbin direktoru Məlahət Hidayətova 20 Yanvar hadisələri barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir.

VII[a] sinfinin şagirdləri Aynaz Əliyevanın, Xədicə Məmmədlinin, Samirə Cəfərovanın, Tural Fətullayevin, Ayxan Əsədovun iştirakılə 20 Yanvar faciəsinə həsr olunmuş kompozisiya maraqla qarşılanıb. Şəhid anası rolunu ifa edən Rəvanə Abdullayevanın çıxışı hər kəsdə dərin hisslər oyadıb.

Digər müllimlərin və şagirdlərin çıxışlarında dönə-dönə vurğulanıb ki, xalqımız heç vaxt Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidləri unutmayacaq, eyni zamanda onların igidlikləri ilə həmişə qurur duyacaq.

**Cülnar QAFAROVA,**
**məktəbin müəllimi.**

## Ürəklərdə yaşayırlar

***Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində 20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümü münasibətilə tədbir keçirilib.***

***Tədbiri giriş sözü ilə açan Qəbələ Regional QHT -lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov faciənin yaranma səbəbləri ilə bağlı məlumat verib.***

Mərasimdə 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Əlillərə Dəstək Xeyriyyə İctimai Birliyinin rəhbəri Yaşar Hümbətov, Qəbələ Regional QHT -lərin Resurs və Təlim Mərkəzinin ofis meneceri Mehrab Səhrablı çıxış edərək 20 Yanvar tarixinin milli hüzn günü kimi qeyd edilməsinə baxmayaraq, o müdhiş gecəni həm də iftixar hissi ilə xatırladıqlarını bildiriblər. Çıxışlarda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımıza qarşı törədilmiş cinayətin, tökülmüş nahaq qanların, insanların vəhşicəsinə qətlə yetirilməsinin Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədiyi qeyd olunub. SSRİ rəhbərliyinin ölkəmizdə törətdiyi bu qanlı cinayətin xalq kütlələrini daha da birləşdirdiyi, onların mübarizliyini daha da artırdığı vurğulanıb.

Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**

## Hüzn və mərdlik günü

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları 20 Yanvar Ümumxalq Hüzn Günü münasibətilə "Şəhidlər Xiyabanı"nı ziyarət etmişlər.

Xiyabanda şəhidlərimizin məzarları üzərinə gül dəstələri qoyulduqdan sonra onların müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir UAD mərkəzdə davam etdirilmişdir. Mərasimdə 1990-cı ilin 20 yanvarında Sovet ordusu tərəfindən törədilmiş qanlı hadisələr haqqında tədbir iştirakçılarına məlumat verilmişdir. Sovet imperiyasının xalqımıza qarşı törətdiyi vəhşiliklərin canlı şahidi olmuş tədbir iştirakçıları o müdhiş gecədə baş verən qanlı qətliam barədə çıxış etmişlər. Qeyd olunmuşdur ki, həmin gecə heç kəsə aman verilməmiş, xalqın vətənpərvərlik, azadlıq ruhunu boğmaq məqsədilə SSRİ rəhbərliyi tərəfindən qanlı qırğınlar törədilmişdir.

Uşaqların ifasında hazırlanmış bədii kompozisiya ilə Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir davam etmişdir.

**Hökümə İSMAYILOVA,**
**mərkəzin işçisi.**